# BALAŞ AZƏROĞLUNUN POEMALARINDA LİRİK RİCƏTLƏR

**S.M.MƏRDANOVA**
*Bakı Dövlət Universiteti*

Balaş Azəroğlu o taylı, bu taylı Azərbaycanın görkəmli şairidir – xalq şairidir. O gözəl lirik şeirlərin, qiymətli poemaların müəllifidir. B.Azəroğlu Cənubi Azərbaycanın azadlığı uğrunda mərd mübarizlərdən olmuş, onların önündə getmişdir. O, azadlıq mübarizəsinin həm ideoloqu, həm də əsgəri olmuşdur. Azərbaycan poeziyasının inkişafında onun özünəməxsus rolu olmuşdur. B.Azəroğlu indi də yaşayıb-yaradır. B.Azəroğlu haqqında, onun yaradıcılığı haqqında, şeir və poemaları haqqında məqalələr, tədqiqat əsərləri yazılmır, poeziyamızda onun yeri müəyyənləşdirilmişdir. Orta və ali məktəb tədrisində Azərbaybaycanın zəngin poeziyası fonunda B.Azəroğlu yaradıcılığına müraciət olunur, şagird və tələbələr tərəfindən onun şeirlərini əzbərlənir, poemaları oxunur.

Şairin poemaları Azərbaycan poeziya sənətinin həm məzmun, həm də sənətkarlıq baxımından, ən müasir tələblərinə cavab verir. Şairin poemalarında epik təsvirlərlə bərabər, bu təsvirlər fonunda lirik ricətlərdən də istifadə olunur. Biz bu yazımızda həmin lirik ricətlər haqqında qeydlər etməyə çalışırıq. Bu cəhətdən şairin beş poemasını nəzərə alırıq: «Bakı səfəri», «Ayerbaxın meyxanasında görüş», «Mənim cəbhə dostlarım», «İnsanın torpaq həsrəti», «İnqilab».

«Bakı səfəri» 1945-ci ildə yazılmışdır. Bu o dövr idi ki, Cənubi Azərbaycanda Milli Demokratik Azərbaycan Respublikası yaranmışdı, xalq yenicə qurulmuş milli dövlətin şənliklərini yaşayırdı. Lakin heç kəs, şair özü də bilmirdi ki, bir qədərdən sonra necə qanlı hadisələr baş verəcəkdir. Şair bilmirdi ki, səfər etdiyi Bakı bir səfərdən sonra onun ömürlük məskəninə çevriləcəkdir. «Bakı səfəri» şairin Təbriz-Bakı və Bakı-Təbriz yollarının poetik ifadəsidir. O, Bakıya gələndə də, Bakıdan gedəndə də, bir-biri ilə səsləşən vətən həsrəti duyur. B.Azəroğlunun ilk gənclik illəri – uşaqlıq illəri Bakıda keçmişdi. O, Bakını tanıyır, ancaq gedib-gələndən sonra yeni Bakı görür, yadına çox şey düşür. Bakıdan ayrılan şairin keçirdiyi hiss:

Yenə də dostlarla dolmuşdu vağzal,
Mənə qəm gətirdi, nədənsə, bu hal,
Çünki ayrılıram eldən, obadan.
Könlüm o yerlərdən ayrılmayır bir an.

«Bakı səfəri» poeması epik-lirik poemadır, gənc şairin odlu-alovlu vaxtlarında yazılmışdı. Bu epik-lirik təsvir fonunda şairin lirik ricətləri də eşidilir. Poemanın «Proloq»unda səfərin başlanğıcı barəsində danışılır, qatar Təbrizdən çıxıb Culfaya doğru hərəkət edir, qatarda tənha şair xəyala dalır, nədənsə ürəyi çırpınır, təsvirdən

ayrılıb, öz halından danışır, həyəcan keçirir, gözləri yaşarır… Şeir bu düşüncələr içində qəlbini açır:

Bəlkə, göz yaşıdır axan hər irmaq,
Əyilib, sən suların rənginə bir bax!
Mənə müqəddəsdir vətən torpağı,
Səhənd silsiləsi, Savalan dağı…

Araz da şairi həyəcanlandırır, «Ellər sahilində durub lal kimi, Həsrətlə sulara baxdıqca baxdı, Fəqət dalğaların axdıqca axdı». Şair Bakıda bir yığıncağı təsvir edir, hərə öz dilində danışır; şair haşiyə çıxır.

İstər gürcü olsun, istərsə qazax,
Hər kəsə öz dili əzizdir ancaq.

Şair bu ölkədəki azadlığı, təntənəni görür; Xəyal onu uzaqlara, Cənuba, vətəninə aparır və o suallar qarşısında qalır, düşünür:

Gözlərim önündən keçən səhnələr
İnan uzaqlara aparır məni.
Bil ki, xatirimə salıb vətəni,
Elə kədərliyəm, elə qəmim var.
Deyirəm, mənim də bir aləmim var.
Mən də yaranmışam, mən də insanam,
Qulluq zəncirinə neyçin bağlanam?..

Poemanın sonunda, epiloqdan əvvəl «Şeir» adlı bir lirik parça var, bu, öz-özlüyündə lirik ricət məqamındadır. Yəni bu hissə poemada təsvir olunan hadisələrin davamı deyil, süjetdən kənar bir ricətdir; Saqiyə müraciətdir; belə başlanır: «Saqi, xumar-xumar baxırsan yenə, Qəlbimə od düşür bu nazdan mənim». Buradakı belə bir bəndi verməyi vacib bilirik:

Yəqin, bu halımı duymusan sən də,
Mən heç içməmişdim dostlar içəndə.
Amandır, sərhədi qatar keçəndə,
Doldur piyaləmi Arazdan mənim.

Şair özü oxucudan əvvəl bu müraciətin mənasını açır, öz-özünə deyir ki, Azərbaycana şöhrət olan, lakin xalqı parçalayan Arazı piyalə ilə qurutmaq olmaz və əlavə edir ki, «İstəsən, bunları qurudasan, bil, Əvvəlcə ellərin göz yaşını sil!».

«Ayerbaxın meyxanasında görüş» poemasında təsvir olunan hadisələr müxtəlif məkanlıdır. Hadisələr Leypsiqdə başlanır. Burada xəyalən şairin böyük alman şairi Höte ilə görüşü və söhbəti verilir. Mən və Höte dialoqu formasında mükalimə gedir. Onlar meyxanaya girib otururlar. Səs gəlir: «Qoca Fausta var bunun oxşarı». Başqa bir səs: «Yəqin, yanındakı Mefistofeldir». Faus da bu söhbətə qarışır. Höte Xəyyam fəlsəfəsinə müraciət edir:

Şairin sözündə hikmətə bax sən,
Deyir ki, heç zaman ölməyəcəksən.
Dünən insan idin, sabahsa çiçək.
Adınla görkəmin dəyişir demək.

Bu poemada bircə ricət var. O da poemanın sonunda. Artıq nə Höte var, nə Faust, nə də Mefistofel. Yenidən şairin təsviri başlanır, təsvirin içində bir misra ricət var, şair onu təsvirdən ayırıb mötərizəyə alıbdır.

Artıq səhərdir.

Günəşli, buludsuz bir yaz səhəri.
Şəfəqlər içində Leypsik şəhəri
Necə gözəl idi, necə füsunkar,
Adamla doluydu gen xiyabanlar,
Bahar havasıyla qabardı sinəm.
(*Meyxanə bir aləm, şəhər bir aləm…*)
Qoşulub o səhər izdihama mən,
Yenə də Hötenin keçdim önündən.
Yenə həm bağlar, həmən meydanca,
Yenə əzəmətlə durmuşdu qoca.

Balaş Azəroğlunun «Mənim cəbhə dostlarım» poeması şairin odlu-alovlu gənclik xatirələrindən başlanır, ad çəkməsə də, ümumi halda uşaqlıq yoldaşlarını yada salır.

Şeirin fikrincə, zaman, məkan deyişsə də, yaddaşlarımızdan
O illərin, o yerlərin izi pozulan deyil,
Tarixə çevrilsə də, ömrün, günün hər anı,
Xatirələr bağlayır ötən günə insanı.

Bu qayda ilə təsvirdə şair ricətlə belə bir mühakimə yürüdür:
Xatirə var, odundan od tutursan, yanırsan,
Xatirə var, ananda, sanki, qanadlanırsan.

Şirin xatirələr onun yadına vaxtilə Ərdəbildə olan bir çayxananı salır. Poemada onu belə adla təqdim edir: «Xəbərlər mərkəzi çayxana». Nə üçün xəbərlər mərkəzi? Çünki müxtəlif peşə sahibləri bura yığılır, burada dünya xəbərlərindən xəbər tuturlar; müharibənin gedişini izləyirlər. Həm də buraya, əsasən, imkanlılar gələ bilir. Burada bir xəbərdən varlananlar da olur, başqa bir xəbərdən var-dövlətini itirənlər də. «Dünən ingilisə arxalananlar, indi almana arxalanırlar». Şair «Ziddi-faşist cəmiyyəti»ni yada salır. Poemanın bu hissəsi əsasən lirik ifadələr üzərində qurulan təsvirlərdən ibarətdir. Ancaq arada şairin lirik mühakiməsi – lirik ricəti eşidilir:

Damla əgər azad olsa,
Axıb-axıb selə dönər.
İnsan əgər azad olsa,
Dağ oynadan filə dönər
Azadlığa çıxanda el
Qandallara, zindanlara sığışmayır.
Azadlığa çıxanda dil
Susmaq bilmir.
Səsi, sözü meydanlara sığışmayır.
«Gözlə» deyən, «dinmə» deyən zəmanənin
Razılığın soruşmayır.

Poemanın «Ziddi-faşist cəmiyyəti», eləcə də «Mitinq» adlı hissələrində təsvir olunan hadisələr bu hikmətlər üzərində qurulmuşdur. Adı çəkilən cəmiyyətin üzvlərinin çağırışına:

Axıb gəlir şəhər əhli,
Kəndistanın rəiyyəti,
Dalğalanır insan seli…

Çətinliklə də olsun, «Ziddi-faşist» qəzeti nəşr olunur. Zeyni adlı bir nəfər qəzeti paylayır. Ancaq bundan fərəhlənən, bundan qorxan da var; bu qəzeti «İstəyərək alan da var, İstəməyib alanlar da». Şair üç il cəbhədə olur, cəbhə dostları ilə azadlıq cəbhəsində, Nəhayət, gözlənilən gün gəlib çatır; faşistlər məğlub olur.

Bu poema həmin dövrdən otuz il sonra, 1975-ci ildə yazılıbdır. Onun son hissəsinin adı da belədir: «Otuz ildən sonra». Şair bir daha öz gənclik dostlarına müraciət edir; «Otuz ildir, mən də sizin Adınızı öz qəlbimdə gəzdirirəm», - deyir. Sonra da ricət edir:

Mən yazmasam, kim yazacaq
Mənim cəbhə dostlarımın
Hünərini, hikmətini!?
Şeir edib, dastan edib
Kim salacaq dildən-dilə
Döyüşünü, cürətini!?

İndi «Ziddi-faşist» qəzeti qələbədən yazır. Ərdəbildə qələbə mitinqləri olur, görüşlər, çıxışlar. Lakin faşistlərin ölüm sobaları sönsə də, «Fəqət hələ sönməmişdir Ürəklərin yanan dağı». Budur yeni bir ricət:

Zaman-zaman ayrılanlar tapışanda,
Ayrılanlar qovuşanda,
Vüsal olar, bayram olar.
Kimisinə hicran yenə hicran olar.
Yol gözləyən könüllərdə
Nigaranlıq ümman olar.
Fəqət aylar, illər keçər,
Köz bağlayar ölənlərin, itənlərin
Ağrısı da, yarası da.
Oğulların hesabına boş görünməz
Ataların sırası da.
Ağır günlər kimisinə tarix olar,
Kimisinə nağıl olar.
Ancaq yenə o günləri
Xatırlamaq ağır olar…

B.Azəroğlunun «İnsanın torpaq həsrəti» poemasının belə bir epiqrafı var: «Ərdəbilin Qışlaq kəndində doğulub Tehranda dəfn olunmuş atamın əziz xatirəsinə». Şairin öz atasının xatirəsinə həsr etdiyi bu poemada hadisələrin təsviri gözəl bir lirizm ilə başlanır. Sonra davam edir və belə bir atalar sözündən ricət kimi istifadə olunur: «Acığın xeyirdən zərəri çoxdur?» Qışlaq kəndinin insanları rəiyyət kimi, öz sakit

həyatlarını yaşadıqları zaman Savalan dağından başlayan vulkan hər şeyi alt-üst edir. Poemanın bu yerində şairin daxili ricət nitqi eşidilir.

Tufan başlayan sakit dəniz də
İlk dəfə beləcə görünür, fəqət –
Yatır dərinlikdə tufan, fəlakət.

Poemada şeirin belə bir mənalı ricəti də var: «Bəzən acizliyə qul olur insan». Poemanın sonunda «Epiloq» adlı bir lirik hissə var. Bu hissə hadisələrin təsviri deyil, Şairin qəlbindən qopan torpaq həsrətli misralardır, Lirik ricət məqamında olan misralardır.

Vətən yolunda şəhid olmuş qəhrəmanların əziz xatirəsinə həsr edilmiş «İnqilab» poeması İranda, Təbrizdə, Tehranda baş verən inqilabi hadisələrin poetik təsvirini verir. Şair bu döyüşləri xəyalından keçirir. İrtica, İran şovinizmi azadlıq uğrunda vuruşa qalxan nə qədər Azərbaycan oğlunu məhv etsə də, onların yeri boş qalmadı, yeni mübarizlər yetişdi və onlar silaha əl atmalı oldular. Şairin mühakimələri nə deyir, deyir ki:

Qılınc qında qalanda zaman-zaman pas atar,
Söz ürəkdə qalanda onun nə mənası var!..

Bəli, qılınclar qında qalmadı, Təbriz qələbə çaldı, Şah qoşunu qaçdı; Ancaq şəhidlərin qan sızıltısı qaldı, analar sızıldadı, şair bunu bayatı ilə dedi:

Əzizim, yar ağacı,
Bağçada nar ağacı.
Nar ağacı kəsildi,
Quruldu dar ağacı.

Şair Tehran hadisələrini yada salır – o qanlı hadisələri, oradakı cəsarəti, ölənləri, öldürülənləri; sonra da «Tarix, nə ağırdır vəzifən sənin», - deyir. Nəhayət, şair, qalib gəlmiş inqilabı tərənnüm edir, onu bir yaşlı uşağa bənzədir, uşağa dayaq lazım olduğu kimi, inqilab da dayaq istəyir. Şair yaxşı deyir:

Ötkəm olur uşaq da, atası varsa əgər,
Uşaq yetim olanda, hərə bir yana çəkər.

Poemanın sonlarında şair ölkədən uzaq düşmüş azadlıq mübarizlərinin vətənə dönmələrini arzulayır.

Daha yoxdur vətənin
Yolunu bağlayanlar.
Qayıtsın ölkəyə
Fədai vüqarını
Qürbətdə saxlayanlar…

Balaş Azəroğlu bu poemasını 1979-cu ildə yazıb. Bu şahin ölkədən getdiyi, şahlığın devrildiyi il idi. Çoxları, elə Balaş Azəroğlu da elə bilirdi ki, Cənubi Azərbaycanın azadlıq dövranı başlayır.

## ƏDƏBİYYAT

1. Azəroğlu B. Şeirlər. B.: Azərnəşr, 1948, 110 s.
2. Azəroğlu B. Seçilmiş əsərləri. İki cilddə. İkinci cild. B.: Yazıçı, 1983, 233 s.


## ЛИРИЧЕСКИЕ ОТСТУПЛЕНИЯ В ПОЕМАХ Б.АЗЕРОГЛЫ


**С.М.МАРДАНОВА**



**РЕЗЮМЕ**

В статье исследуются лирические отступления в пяти поэмах азербайджанского поэта Балаша Азероглы: «Поездка в Баку», «Встреча на мейхане Айербаха», «Мои фронтовые друзья», «Тоска по земле», «Революция». Поэмы Азероглы так же, как и его лирические стихотворения, связаны с путями борьбы, пройденными поэтом, и с событиями в Южном Азербайджане.

Лирические отступления в поэмах яркие выражения, образно описывающие события, например: «Воспоминания связывают человека с прошлым»; «Если меч остается в ножках, то он постепенно ржавеет». Такие лирические отступления усиливают образность поэм.